Tarix və onun problemləri, №1-2 2009

**YEGANƏ MƏMMƏDOVA**
*GDU-nun müəllimi*

# XVII YÜZİLLİKDƏ AZƏRBAYCANDA HİND TİCARƏT KAPİTALININ MÖVQEYİNİN GÜCLƏNMƏSİNƏ DAİR

Son orta əsrlər dövründə Hindistanla Azərbaycan arasındakı iqtisadi-ticarət əlaqələrinin müsbət tərəflərilə yanaşı mənfi tərəfləri də olmuşdur. Belə ki, bu dövrdə hind ticarət kapitalı Şərqin bir çox ölkəsində, xüsusilə də, Səfəvilər dövlətinin tərkibinə daxil olan ölkələrdə olduqca güclü bir mövqeyə malik olmuşdur. Səfəvilər dövlətinin mühüm tərkib hissəsi olan Azərbaycanda da həmçinin hind tacirlərinin, hind ticarət kapitalının mövqeyi güclü idi. Bu isə son nəticədə, həmin XVII yüzilliyin ikinci yarısından ölkələrin bazarlarının hind tacirləri tərəfindən zəbt olunmasına gətirib çıxardır. Hind ticarət kapitalının belə bir mövqe qazanmasının səbəbi isə çox güman ki, son orta əsrlər dövründə Hindistanın beynəlxalq ticarət dövriyyəsinə müxtəlif sayda və çeşiddə məhsul çıxarda bilməsi ilə bağlı olmuşdur. M.Heydərov çox düzgün olaraq, Şərq ölkələrində hind ticarət kapitalının mövqeyinin güclənməsinin məhz bununla bağlı olduğunu qeyd etmişdir (3, 87).

XVI-XVII yüzilliklərdə demək olar ki, bütün Yaxın və Orta Şərq ölkələrində hind ticarət koloniyaları şəbəkəsi mövcud olmuşdur. Kabil, Qəndəhar, Bəndər-Abbas, İsfəhan, Şiraz, Bakı, Şamaxı kimi iri ticarət mərkəzlərində məskən salmış hind tacirləri öz vətənləri ilə sıx iqtisadi əlaqələr saxlayaraq, yerli və hind istehsalı olan mallarla ticarət edir, bankir-sələmçi və Hindistan, İran, Orta Asiya və şərqin digər ölkələri arasında quru, yəni karvan ticarətində vasitəçi rolunu oynayırdılar (8, 10).

Təbii ki, Yaxın və Orta Şərq ölkələrində hind ticarət kapitalının mövqeyinin möhkəmlənməsinin ümumi səbəbləri ilə bərabər hər bir ölkədə hind ticarət kapitalının mövqeyinin möhkəmlənməsinə imkan verən, ölkə bazarlarının hind tacirləri tərəfindən zəbt olunmasına şərait yaradan ayrı-ayrı səbəblər də olmuşdur. Belə ki, Azərbaycanda hind ticarət kapitalının mövqeyinin güclənməsinin bir sıra özünəməxsus səbəbləri vardı. Fikrimizcə, hind ticarət kapitalının mövqeyinin vətənimizdə möhkəmlənməsi üçün əlverişli şəraitin yaranması Səfəvi-Osmanlı müharibələri ilə bağlı olmuşdur. Belə ki, 1639-cu ilə qədər qısa fasilələrlə aramsız olaraq davam etmiş bu müharibələr zamanı başlıca hərbi əməliyyatlar əsasən Azərbaycan ərazilərində getdiyinə görə əlbəttə ki, əsas ziyan da buraya dəymişdi. Şəhərlər dağıdılmış, əhalinin böyük bir hissəsinə külli miqdarda zərər dəymişdi. Bir sözlə, ölkə iqtisadiyyatına güclü zərbə vurulmuşdu (6, 156).

Bəhs olunan dövrdə Azərbaycanda və eləcə də Səfəvilər dövlətinin tərkibinə daxil olan digər ölkələrdə hind ticarət kapitalının mövqeyinin güclənməsinin digər bir səbəbi isə bu dövlətdə yadelli tacirlərin də yerli tacirlərin malik olduqları imtiyazlardan istifadə edə bilmələrilə bağlı olmuşdur. Səfəvi dövlətində ticarət yolları bütün yadelli tacirlər üçün açıq idi. Yəni yerli və gəlmə tacirlərin hökümətə tələb olunan gömrük və gəliri vermək şərtilə istədikləri kimi ölkəyə gəlib getməyə, azad şəkildə öz mallarını buraya gətirməyə, yerli malları ölkədən kənara daşımağa, ticarət və sənaye ilə məşğul olmağa ixtiyarları vardı (5, 791).

Həm müflisləşmiş və artıq geniş maliyyə vəsaitləri olmayan azərbaycanlı tacirlər böyük maliyyə imkanlarına malik hind tacirlərilə rəqabət aparmaq iqtidarında deyildilər, həm də, gəlmə tacirlər də yerli tacirlərin malik olduqları bütün imtiyazlardan istifadə edə bilirdilər. Hind tacirləri üçün Azərbaycanda möhkəmlənmələri olduqca əlverişli idi. Belə ki, burada onlar üçün geniş fəaliyyət imkanları mövcud idi. Azərbaycanda

möhkəmlənməklə, hind tacirləri asanlıqla Rusiya bazarlarına da çıxış əldə edirdilər. Onların sonrakı fəaliyyətləri də bunu bir daha göstərmiş oldu. Bir sözlə, XVII əsrin 30-40-cı illərindən artıq Azərbaycanda hind tacirlərinin sayı əhəmiyyətli dərəcədə artmağa başlayır. Doğrudur, onların buradakı fəaliyyətlərinin müsbət tərəfləri də vardı. Belə ki, hind tacirləri Azərbaycan şəhərlərinin ticarət fəaliyyətinin canlanmasında mühüm rol oynamış olurlar.

Artıq XVII yüzilliyin birinci yarısında Azərbaycan şəhərlərində hind tacirlərinin koloniyaları meydana gəlməyə başlayır, onların burada sayları əhəmiyyətli şəkildə artır. Doğrudur, XVI yüzilliyə aid mənbələrdə Azərbaycan və eləcə də İran şəhərlərində olan hind tacirlərinin sayı ilə bağlı məlumatlar yoxdur. Lakin XVII yüzillikdə Səfəvilər dövlətində olan avropalı səyyahların əsərlərində bu barədə kifayət qədər məlumatlar vardır. Buna görə də, ehtimal etmək olar ki, Azərbaycan və eləcə də, İran bazarlarında hind ticarət kapitalının mövqeyinin möhkəmlənməsi, hind tacirlərinin burada məskən salmaları hələ XVI yüzillikdə başlamışdır. Pakistan tarixçisi Riyazül İslam çox doğru olaraq, qeyd edir ki, «Moğol imperiyasında siyasət və mədəniyyət sahələrində iranlıların böyük müvəffəqiyyətlər qazanmalarına baxmayaraq, eyni vaxtda hindlilər İranın paytaxtında və limanlarında həyat üçün son dərəcə vacib olan iqtisadiyyat sahəsində möhkəm mövqeyə malik idilər» (7, 257).

Hind tacirlərinin yerli tacirləri sıxışdırmaları, onları tədricən müflis etmələri özünü göstərməyə başlayır. Belə bir vəziyyətin yaranması isə təbii ki, Səfəvi dövlət başçılarının narahat etməyə bilməzdi. Məhz bununla əlaqədar olaraq, Şah I Abbas (1587-1629) Səfəvilər dövlətinin ərazilərində hind tacirlərinin ticarət etmələrini qadağan edir (11, 513). O, tamamilə haqlı olaraq, hind tacirlərinin rəqabətindən ehtiyat edirdi. Beləliklə də, müəyyən bir vaxt dövründə Hindistanla ticarət demək olar ki, bütünlüklə kəsilmiş olur. M.Heydərov isə səhvən bunu Səfəvilər dövləti ilə Böyük Moğol imperiyası arasında siyasi münasibətlərin pisləşməsi ilə əlaqələndirir (3, 87). Onun belə bir mülahizə yürütməsinə səbəb isə 1614-cü ildə Rusiya hökuməti tərəfindən Şah I Abbasın yanına göndərilmiş çar qasidi İvan Brexovun hesabatı olmuşdur. Brexov Səfəvi hökmdarı ilə hind hökmdarı arasında soyuqluq olduğunu, habelə hind tacirlərinin Qızılbaş torpaqlarına gəlmədikləri, eyni zamanda da, Səfəvi tacirlərinin Hindistana getməyə cürət etmədiklərini yazırdı. Daha sonra isə o, Qızılbaş torpaqlarında hər bir malın qiymətinin baha olmasının bununla əlaqədar olmadığını qeyd edirdi (2, 86-87).

Çar qasidinin nəyə əsaslanaraq belə yazmasını güman etmək çətindir. Yəqin ki, XVII yüzilliyin əvvəllərində ölkədə hind ticarət kapitalının getdikcə möhkəmlənməsindən narahat olan Şah I Abbasın bununla bağlı gördüyü tədbirlərlə əlaqədar Azərbaycanda hind tacirlərinin mövqelərinin zəifləməsi onu belə bir fikrə gəlməyə vadar etmişdir. Əslində isə bəhs olunan dövrdə Səfəvilərlə Hindistandakı dövlətlər, o cümlədən də, Böyük Moğollar dövləti arasında olduqca sıx siyasi-diplomatik münasibətlər mövcud olmuşdur (7, 113-151). Şah I Abbasın hindistanlı tacirlərə qarşı belə bir mövqe tutması əlbəttə ki, zərurətdən irəli gəlirdi. Bacarıqlı və uzaqgörən bir dövlət xadimi olan Şah I Abbas müəyyən tədbirlər həyata keçirməklə hind ticarət kapitalının öz ölkəsində möhkəmlənməsinin qarşısını almağa çalışırdı və buna qismən də olsa, müvəffəq ola bilir. Lakin çox təəssüf ki, Şah I Abbasın varisləri vəziyyətin ciddiliyini anlamayaraq, onun bu iqtisadi siyasətini davam etdirmirlər. Hind tacirləri Şah I Abbasın vəfatından sonra hakimiyyətə gələn nəvəsi Şah I Səfiyə (1629-1642) hədiyyə adı ilə böyük miqdarda rüşvət verməklə mərhum şahın qoymuş olduğu qadağaların aradan qaldırılmasına nail olurlar (6, 257; 11, 513). Bundan sonra Azərbaycanda hind ticarət kapitalının mövqeyinin möhkəmlənməsi yüksələn xətlə getməyə başlayır. Şah Səfi və ondan sonra hakimiyyətdə olan digər Səfəvi hökmdarlarının belə bir mövqe tutmalarının çox güman ki,

müəyyən səbəbləri olmuşdur. Belə ki, hind tacirləri ölkədə şəhərlərin ticarət fəaliyyətinin canlanmasında mühüm rol oynayırdılar. Digər tərəfdən isə Şamaxı, Bakı və Azərbaycanın başqa şəhərlərində yaşayan hind tacirləri yerli hakimlərə böyük vergilər ödəyərək, din azadlığından istifadə edir, özlərinin məişət və kasta adətlərini həyata keçirirdilər. Məsələn, Y.Streys Şamaxıda vəfat etmiş varlı hind tacirinin nəşini yandırmaqdan ötrü icazə almaq üçün onun qardaşının şəhər hakiminə böyük məbləğdə pul ödədiyini bildirir (9, 255; 1, 33). Bundan başqa, əsərinin digər yerində Streys Şamaxıda yaşayan varlı hind tacirlərinin xana böyük məbləğdə pul təklif edərək, onlara məxsus bayram günlərində şəhərdə mal-qaranın kəsilməsini qadağan etməyi xahiş etdiklərini yazırdı (9, 276-277). Bütün bu qeyd olunanlara əsaslanaraq, yerli hakimiyyət orqanlarının hind tacirlərindən böyük məbləğdə pul vəsaitləri aldıqlarına görə onların fəaliyyətlərinin məhdudlaşdırılmasında maraqlı olmadıqlarını müəyyən etmək olar.

Həmçinin, hind tacirləri şah xəzinəsinə böyük miqdarda gömrük haqları ödəyirdilər. 1647-ci ilin fevralında Moskvada Posol prikazında hindlilərin Həştərxanda ticarət şərtləri və Rusiyanın Hindistanla ticarətinin genişləndirəlməsi tədbirləri haqda məlumat verən Sutur adlı hind taciri həm də Səfəvilər dövlətində bütün şəhərlərdə çoxlu hind ticarət adamlarının olduğunu və onlardan şah xəzinəsi üçün xeyli gömrük haqqının alındığını bildirirdi. O, həmçinin «şah şəhərlərində onlara qorumanın olmadığını və onlardan gömrük haqlarının artıq alındığını, şah vilayətlərində hər bir kəsin hindliləri incitdiyini, qarət etdiyini və mallarını əllərindən aldığını» da qeyd edirdi (8, 84-85).

Beləliklə, Səfəvilər dövlətində istər mərkəzi, istərsə də yerli hakimiyyət dairələrinin hind tacirlərinin fəaliyyətlərinin məhdudlaşdırılmasında maraqlı olmadıqları aşkar olur. Lakin onların mövcud vəziyyəti düzgün qiymətləndirməmələri, hind tacirlərindən əldə olunan gəlirlərə aldanmaları son nəticədə dövlətin iqtisadiyyatına güclü bir zərbənin vurulmasına gətirib çıxardır.

Hind tacirləri böyük əksəriyyəti Təbriz və Şamaxıda ticarət əməliyyatları aparırdılar. Bununla belə, Azərbaycanın və İranın digər şəhərlərində də onların sayı xeyli idi. Bunu XVII yüzillikdə İranda və Azərbaycanda olmuş avropalı səyyahların məlumatlarından da görmək olar. Haqqında yuxarıda danışılan hind taciri Sutur «şah şəhərlərində xeyli hindlinin daimi, 10000 hindlinin səfərə çıxmadan yaşadığını» bildirmişdi (8, 84-85). Oleari və Tavernyenin verdikləri məlumatlara görə Səfəvilər dövlətində 10-12 min hind taciri vardı. Şarden isə Səfəvilər dövlətində yaşayan hind tacirlərinin sayının 20 mindən artıq olduğunu yazırdı. Azərbaycanın bir çox şəhərlərində Hindistanla sıx ticarət əlaqələri saxlayan və hind sənətkarlarının hazırladıqları mallarla ticarət edən xeyli sayda hind taciri yaşayırdı. Yan Streys XVII yüzilliyin 60-cı illərində Şamaxıda şəhər kənarında dini ibadətlə məşğul olan yüz nəfərdən artıq banyan (Banyan – hindli tacirlərin adıdır, hindli tacirlər əsasən bu ad altında məlumdurlar – müəl.) gördüyünü yazırdı. Hollandiyalı səyyah həmçinin onların ticarət işlərində son dərəcə fəndgir və çevik olduqlarını, bu xüsusiyyətlərilə də digər tacirlərdən xeyli üstün olduqlarını qeyd edirdi (9, 276-277).

Beləliklə, tədqiqata cəlb edilmiş materiallara əsasən XVII yüzillikdə Azərbaycanda xeyli sayda hind tacirlərinin olması və onların ölkə bazarlarında üstünlüyə malik olmaları aşkara çıxır.

XVII yüzilliyin ikinci yarısında Azərbaycanın Təbriz, Ərdəbil, Şamaxı, Bakı, Dərbənd və digər böyük şəhərlərində hind tacirləri tərəfindən tikilən karvansaraların sayının artması hind ticarət kapitalının burada hakim mövqeyə malik olmasını, ticarətin genişlənməsini göstərən ən əsas faktlardandır. XVII əsrin iyirminci illərində Azərbaycanda olmuş rus taciri F.Kotov bu zaman ölkənin ən iri ticarət mərkəzlərindən olan və ipək istehsalı sahəsində mühüm bir yer tutan, habelə yadelli tacirlərin son dərəcə çox-

luq təşkil etdiyi Şamaxıda hind tacirlərinə məxsus yeddi karvansaranın olduğunu qeyd edirdi (12, 35). A.Oleari Bakıda bir çox xalqlara, o cümlədən də, hindlilərə məxsus bir çox karvansaranın olması ilə bağlı məlumat verir (5, 591). Yan Streys Şirvanda ticarət əməliyyatları ilə məşğul olan hind tacirləri tərəfindən məxsusi olaraq öz karvanlarının dayanması üçün 1637-ci ildə Şamaxı-Ərdəbil ticarət yolunun üzərində böyük bir karvansaranın tikildiyini xəbər verir (9, 284).

Beləliklə, XVII yüzillik ərzində müxtəlif vaxtlarda Azərbaycanda olmuş səyyahların demək olar ki, hamısı ölkənin bütün iri ticarət mərkəzləri olan şəhərlərində hind tacirlərinə məxsus karvansaraların mövcud olması haqda məlumatlar vermişlər. Karvansaralar isə şərq ölkələrində ticarət fəaliyyətində böyük rol oynayırdılar. «Əgər hansısa bir tacir digər ölkənin mallarını, məsələn, hind parçaları, firuzə və s. almaq istəyirdisə, onları hind tacirlərinin dayandıqları karvansaradan əldə etmək olardı» (3, 25).

Azərbaycanda öz mövqelərini möhkəmləndirdikdən sonra hind tacirlərinin müəyyən bir qismi rus dövlətinin ərazilərində də, xüsusilə də, Həştərxanda özlərinin ticarət koloniyalarını yaradırlar. Bu da təsadüfi deyildi. Belə ki, XVII yüzillikdə Həştərxan şərq ticarətini qərblə bağlayan bir mərkəz idi. Burada yaşayan hind tacirləri ruslarla iri ticarət əməliyyatları aparır və müxtəlif rus mallarını Azərbaycan, İran bazarlarına çıxardırdılar. Bunu XVII əsrin ikinci yarısına dair Həştərxan gömrükxanasının hind tacirlərinin Azərbaycana, İrana getmələrilə bağlı verdikləri icazə sənədlərindən aydın görmək olur (8, 10-11, 40-43, 344, 270).

XVII yüzilliyin ikinci yarısında ticarət-sələmçi kapitalının mövqeyi əhəmiyyətli dərəcədə güclənmiş olur ki, varlanmış hindli tacirlər bu sahədə xüsusi rol oynamışlar. Xeyli böyük pul vəsaitlərinə malik olan hind tacirləri vasitəçi ticarət əməliyyatları ilə bərabər həm də sələmçilik fəaliyyətilə də məşğul olur, azərbaycanlı və iranlı feodallara böyük faizlərlə iri məbləğlərlə pul verirdilər. Məsələn, 1667-ci il iyununa aid Sibir prikazının 1666/1667-ci ilə dair mədaxil-məxaric kitabından çıxarışda Şamaxıda hind tacirlərinin rus cümüş pullarının dəyişdirilməsilə bağlı məlumat verilmişdir: «Şamaxıda hindlilər 7860 manat gümüş rus pulunu dəyişdirmişlər. Qızılbaş pulları 100 manata 107 manat hesabı ilə qəbul edilmişdir. Onların rus pulu ilə 550 rubl, 6 altın, 4 qəpik gəlirləri olmuşdur» (8, 161; 1, 34). Tavernye hind tacirlərinin sələmçilik fəaliyyətlərinin çox zaman olduqca amansız xarakter aldığını, verdikləri borclar üçün 30 və daha artıq faiz aldıqlarını yazırdı (11, 513). Beləliklə, sələmçilik fəaliyyətləri sayəsində hind tacirlərinin ixtiyarında xeyli böyük məbləğdə pul vəsaiti toplanmış olurdu. Onlar sələmçilik vasitəsilə əldə etdikləri pul vəsaitlərini təbii ki, öz ölkələrinə göndərirdilər. XVII yüzilliyin ikinci yarısında hind tacirləri Rusiya və Aəzərbaycandan böyük miqdarda qızıl və gümüş pullar çıxartmışlar (8, 159-160). Bu isə ölkə iqtisadiyyatı üçün son dərəcə təhlükəli bir hal idi. Bu ölkədə sikkə dövriyyəsində ağır vəziyyətin yaranmasına səbəb olurdu. Şarden bununla bağlı belə məlumat verirdi: «1677-ci ildə, mən İrandan qayıtdığım zaman İranda təmiz qızıl və ya gümüş sikkə tapmaq müşkül idi. Çünki hind sələmçiləri onları külçə halında aparırdılar» (10, 64). Belə bir vəziyyət XVII yüzilliyin ikinci yarısında Səfəvilər dövlətinin süqutunun əsas səbəblərindən biri olan uzunsürən sikkə böhranının meydana gəlməsinə səbəb olur (6, 190, 216).

Beləliklə, XVII yüzillikdə, xüsusilə də, ikinci yarısında Azərbaycanda hind ticarət kapitalının güclü bir mövqeyə malik olduğunu, ölkə bazarlarının hind tacirləri tərəfindən zəbt olunmasını görürük. Hindistanla ticarətdə Səfəvilər dövlətinin tərkibinə daxil digər ölkələr kimi Azərbaycanın da passiv mövqe tutmağa başlaması vəziyyəti daha da ağırlaşdırır. Bununla da, Azərbaycanda Hindistan və digər Şərq ölkələrilə ticarət bütünlüklə hind tacirlərinin ixtiyarına keçir. Bu isə Səfəvilər dövlətini zəifdədən amillərdən biri, bəlkə də, ən mühümü olur.

## ƏDƏBİYYAT

1.Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Б.: Азернешр, 1992, 149 с.
2.Бушев П.П. История посольств и дипломатических отношений Российского и Иранского государств в 1613-1621 гг. М., 1987, 278 с.
3.Гейдаров М. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Б.: Элм, 1999, 168 с.
4.Həsənəliyev Z. Səfəvilər dövləti XVII əsrin I yarısında. B., 2000, 352 s.
5.Олеари А. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 гг. Перевод с немецкого П.Борисова. М., 1870, 1073 с.
6.Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Б.: Элм, 1981, 238 с.
7.Riyazül İslam, Rəvabet-e İran-o hind (dər doure-yi səfəviyye ve Əfşariyye)/Tercüme Məhəmmədbağer Aram və Abbasqulu Qaffari, Tehran, 1383, 401 s.
8.Русско-индийские отношения в XVII в. – М.: Наука, 1956, 665 с.
9.Стрейс Я. Три путешествия. Перевод Э.Бородиной. М., 1935, 387 с.
10.Şarden J. Səyahətnameye-Şarden./Məhəmməd Abbasinin fransızcadan fars dilinə tərcüməsi. Cild IV, Tehran, 1335/1956, 567 s.
11.Tavernye J.B. Səfərnameyi Tavernye./Əbu Turab Nurinin fars dilinə tərcüməsi. İsfəhan, 1336/1957, 718 s.
12.Хожение купца Федота Котова в Персию. Публикация Н.А.Кузнецовой. М., Изд. Восточных лит., 1958, 111 с.

**ЕГАНА МАМЕДОВА**
***преподаватель ГГУ***

### ОБ УСИЛЕНИЕ ИНДИЙСКОГО ТОРГОВОГО КАПИТАЛА В АЗЕРБАЙДЖАНЕ В XVII ВЕКЕ

В данной статье исследуется одна из интересных и малоизученных проблем в истории связей Индии с Азербайджаном в позднее средневековье: усиление позиций индийского торгового капитала в Азербайджане в XVII веке. В связи ряда причин в Азербайджане и а также в других странах находящихся в составе Сефевидского государство позиция индийского торгового капитала усилятся, и во второй половине XVII века рынки этих стран захватывается со стороны индийских купцов.

**EGANA MAMMADOVA**
***Teacher is GSU***

### ABOUT STRENGTHENING POSITION OF INDIAN TRADE CAPITAL IN AZERBAIJAN IN XVII CENTURY

In given clause one of interesting and a few to studying problems in history of communications of India with Azerbaijan in later Middle Ages: strengthening of a position of the Indian trading capital in Azerbaijan in XVII century. In communication of some the reasons in Azerbaijan and also in other countries being in structure of the state Sefevids a position of the Indian trading capital strengthening and in the second half XVII centuries the markets are grasped from the Indian merchants.

***Rəyçilər: t.e.d.Ş.F.Fərzəliyev, t.e.d.İ.M.Məmmədov***
***Gəncə Dövlət Universitetinin Ümumi Tarix kafedrasının 11 iyun 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №12).***